AZERBAIJAN CASPIAN SHIPPING CO. 1858

Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

13 noyabr 2015-ci il
№ 39-40 (8997)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

Daim diqqət mərkəzində olan sahə ordu quruculuğudur. Biz bu sahəyə daim böyük diqqət göstəririk. Bu da təbiidir, çünki Azərbaycan müharibə şəraitində yaşayır, müharibə bitməyib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Bunu artıq hamı görür, o cümlədən bu məsələ ilə məşğul olan vasitəçilər.

Ordu quruculuğu gələn il də prioritet sahə olaraq qalacaq. Bu sahəyə nə qədər lazımdırsa vəsait ayrılacaq. İndi həm yeni texnikanın, silah-sursatın alınması, istehsalı prosesi gedir, eyni zamanda, hərbi hissələr üçün ən yüksək səviyyədə şəhərciklər, hərbi bazalar tikilir. Bu il Hərbi Dəniz Qüvvələrinin böyük bazası istifadəyə verilmişdir. Təmas xəttinə yaxın olan bölgələrdə yeni infrastruktur yaradılır və bizim döyüş qabiliyyətimiz artır. Təmas xəttindəki vəziyyət Azərbaycan ictimaiyyəti üçün sirr deyil. Biz tam üstünlüyü əldə etmişik, düşmənə sarsıdıcı zərbələr vururuq, düşmənin bütün təxribatlarına layiqli cavabımızı veririk.



Keçən ay düşmənin növbəti təxribatının qarşısı alındı. Bizə qarşı böyük təxribat hazırlanırdı, çoxsaylı diversantlar artıq təşkil olunmuş və səfərbər edilmişdi ki, Azərbaycanın mövqelərinə hücum çəksinlər. Bizim ordumuz o təxribatın qarşısını aldı. Preventiv zərbə vurmaqla düşmənə çox böyük ziyan yetirdi və bir çox işğalçılar məhv edildi. Əlbəttə ki, Ermənistan tərəfi dərhal həmişə olduğu kimi, hay-haray qaldırdı. Ancaq burada təbii sual yaranır, işğalçılar hansı ərazidə həlak oldular? Ermənistandamı? Xeyr, bizim torpağımızda. İşğal edilmiş torpaqlarda. Sual olunur, onların orada nə işi var? Özü də orada ölənlərin mütləq əksəriyyəti Ermənistan vətəndaşlarıdır, heç Dağlıq Qarabağ sakinləri deyil. Yəni, Ermənistan ordusu bizim torpaqlarımızda işğalçılıq siyasəti aparır. Bu, gün kimi aydın bir məsələdir. Əfsuslar olsun ki, bunu beynəlxalq ictimaiyyət, vasitəçilər görmək istəmirlər və işğalçıya ciddi siqnallar göndərilmir. Ona görə onlar azğınlaşıblar və bizə qarşı müxtəlif təxribatlara əl atırlar. Ancaq hər dəfə onların təxribatları iflasa uğrayır. Necə ki keçən ilin noyabrında bizim mövqelərimizə hücum edən helikopter məhv edildi. Bu ilin sentyabr ayında böyük itkilər verdilər və hər dəfə biz onların cəzasını verəcəyik.

Biz ölkəmizin ərazi bütövlüyünü bərpa etməliyik və edəcəyik. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən əhəmiyyətsiz deyil. Məsələ beynəlxalq hüquq çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və tapacaq. Biz isə iqtisadiyyatımızı gücləndiririk, ordumuzu gücləndiririk və istənilən vaxtda lazımi tədbirləri də görəcəyik.

Erməni diktatoru hətta Ermənistanın rəsmi mövqeyinə tamamilə zidd olan bəyanatlar verir. Bəyan edir ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir. Birincisi, Dağlıq Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır və beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın ayrılmaz hissəsidir. Bunu bütün dünya ictimaiyyəti, BMT belə qəbul edir və heç bir ölkə Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi qəbul etmir, müstəqil qurum kimi də qəbul etmir və qəbul etməyəcək. Ona görə, bu, çox qəribə, yumşaq desək, qeyri-adekvat və görünür ki, çox gərgin psixoloji durumda verilən bəyanat həm Ermənistanı işğalçı ölkə kimi ifşa edir, həm də rəhbərliyini biabır edir. Çünki indi hər bir insan danışdığının məsuliyyətini daşımalıdır, xüsusilə böyük vəzifə sahibləri. Ancaq xunta rejimindən bundan artığını gözləmək də çətindir. Çünki Ermənistanın bugünkü hakimiyyəti hərbi canilərdir, Xocalı soyqırımını törədənlərdir. Azərbaycan torpaqlarının işğalında dinc əhaliyə qarşı aparılan etnik təmizləmə siyasətində fəal iştirak edənlərdir. Onlardan bundan artığını gözləmək mümkün deyil. Ancaq o da həqiqətdir ki, bu gün Ermənistanda hökm sürən xunta və diktatura rejimi Ermənistan xalqı üçün də təhlükəyə çevrilib. Ermənistan xalqı da artıq buna dözə bilmir, bu kriminal, korrupsioner rejimdən bezib. Ermənistandan köç gedir. Vəziyyət o həddə çatıb ki, onlar indi Azərbaycana pənah gətirirlər, Azərbaycana gəlirlər. Görün bu rejim nə dərəcədə azğınlaşıb, əhaliyə qarşı nə qədər çirkin əməllər görür ki, hətta bu gün Azərbaycana Ermənistandan insanlar köçür və burada rahat yaşayır. Çünki Azərbaycanda nəinki milli, dini zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq da ola bilməz.

Azərbaycan bu gün güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıbdır. Regional təhlükəsizlik məsələlərində Azərbaycan çox müsbət rol oynayır. Azərbaycan sabitləşdirici amildir. Bizim iştirakımız, razılığımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. İqtisadi və hərbi potensialımız bizim gücümüzü daha da artırır və biz bu gün təmas xəttində vəziyyətə nəzarət edirik. Getdikcə bizim gücümüz artacaq, Ermənistan daha da zəifləyəcək. Çünki inkişaf üçün Ermənistanda heç bir imkan yoxdur. Heç bir obyektiv amil yoxdur ki, Ermənistan bu diktatura rejimi altında inkişaf etsin.

Biz isə öz yolumuzla gedəcəyik. Biz ilin sonuna qədər bütün vəzifələri icra edəcəyik. Gələn ili də əminəm ki, uğurla başa vuracağıq.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Azərbaycan müstəqillik yolunda inamla irəliləyir

**9 noyabr - Dövlət Bayrağı Günü və 12 noyabr - Konstitusiya Günü ərəfəsində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bütün kollektivi bu bayramlar münasibətilə təbrik edib.Təbrikdə deyilir:**

Hörmətli həmkarlar!

Sizi qarşıdan gələn əlamətdar bayramlar - 9 noyabr - Dövlət Bayrağı Günü və 12 noyabr - Konstitusiya Günü münasibətilə ürəkdən təbrik edir, dənizdə və sahil təşkilatlarında çalışan hər bir Gəmiçilik işçisinə uzun ömür, möhkəm cansağlığı və müvəffəqiyyətlər arzulayıram.

Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, bizim bayrağımız bizim müstəqilliyimizin rəmzidir, bizim qürur mənbəyimizdir, bizim canımızdır, bizim ürəyimizdir.

Xalqımız yaxşı bilir ki, üçrəngli bayrağımızın dövlət atributu kimi bərpası Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 90-cı illərin əvvəllərində Ulu Öndər əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə dövlət müstəqilliyinin qazanılması və milli özünüdərkin təmin olunması prosesinə rəhbərlik etmişdir.

İndi bayrağımız dünyanın 180-dən artıq müstəqil dövlətinin bayraqları ilə bir sırada dalğalanmaqdadır. Azərbaycan Respublikası Dövlət Bayrağımız altında və Dövlət Başçımızın yorulmaz səyləri ilə müstəqillik yolunda inamla irəliləyir. Bu, hər bir azərbaycanlının qəlbində böyük sevinc və iftixar hissləri doğurur.

Bir tarixi gerçəklikdir ki, dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunmuş Konstitusiyamızda üçrəngli bayrağımız dövlət rəmzi kimi təsbit edilmişdir.

Ölkəmizin Əsas Qanunu Ulu Öndərin şah əsəri olaraq, Azərbaycanın bir müstəqil dövlət kimi mövcudluğunun əsasını təşkil edir, bütün vətəndaşlarımızın ali hüquqlarını müəyyənləşdirir.

Bu həqiqətlər Dövlət Bayrağı Gününü və Konstitusiya Gününü fəxrlə qeyd etməyimizə zəmin yaradır.

Möhtərəm Prezidentimizin "Azərbaycan bayrağı Dağlıq Qarabağda, Şuşada və bu gün hələ də işğal altında qalan başqa torpaqlarımızda dalğalanacaq" sözlərinə əminliklə bütün Gəmiçilik işçilərini qarşıdakı möhtəşəm bayramlar münasibətilə bir daha təbrik edir, dövlətimizin inkişafı yolunda yeni-yeni uğurlar diləyirəm.

**Rauf VƏLİYEV,**
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri**

## DALĞALAN, BAYRAĞIM MƏNİM! DALĞALAN!!!

**Müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edən üçrəngli bayrağımız qürurumuz, mənəvi sərvətimiz, toxunulmaz xəzinəmizdir.**

Göylərin sonsuzluğuna ucalan və milli mənsubiyyətimizi ifadə edən bu bayrağımızı xalqımız ilk dəfə başı üzərinə 97 il öncə qaldırıb. 1920-ci ilin 28 aprelində respublikamızın bolşeviklər tərəfindən işğalından sonra Azərbaycan Parlamentinin binası üzərindən endirilən ay-ulduzlu üçrəngli bayrağımızın əvəzinə "qırmızılar" bizə oraq-çəkicli qondarma bayrağı dövlət atributu kimi sırımağa çalışdılar. Ulu Öndər Naxçıvan Respublikasına rəhbərlik etdiyi dövrdə bir-birinin ardınca xalqda özünüdərki gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən mühüm tədbirlər həyata keçirdi. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, hələ sovet hakimiyyəti dağılmamış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı ilə ay-ulduzlu üçrəngli bayrağımız rəsmi olaraq Naxçıvan Ali Sovetinin binası üzərində ucaldıldı. 1991-ci il oktyabrın 18-də isə ölkə parlamenti Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi. Həmin gün ay-ulduzlu üçrəngli bayrağımız 70 il məhkum edildiyi qaranlıqlardan qurtularaq birdəfəlik işığa çıxdı və Dövlət Bayrağı statusunda yenidən xalqımızın başı üzərində dalğalandı.



Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında üçrəngli bayraq dövlət rəmzi kimi təsbit edilmişdir. Əsas Qanunun 23-cü maddəsinin II bəndində göstərilir: "Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".

*(Davamı 2-ci səhifədə)*

# DALĞALAN, BAYRAĞIM MƏNİM! DALĞALAN!!!

*(Əvvəli 1-ci səhifədə)*

Mavi rəng türklüyü,qırmızı rəng müasirliyi, yaşıl rəng isə dilimizə bağlılığı ifadə edir. Bayrağın üzərindəki ağ rəngli ay nişanı türkçülüyün, səkkizguşəli ulduz isə "Azərbaycan" sözünün əski əlifbada səkkiz hərflə yaşılışının göstəricisidir. Bəzi mənbələrə görə isə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət prinsipləri müəyyənləşdirilərkən səkkiz atributa əsaslanıb. Bunlar türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdi. Səkkizguşəli ulduzun hər bucağı bu prinsiplərin biri rəmzindədir.

Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində isə qeyd olunur ki, "Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir."

Bütün sahələrdə Ulu Öndərin siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin milli dövlət atributlarına münasibətində də eyni sevginin şahidi oluruq. Məhz möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə Dövlət Bayrağı Günü təsis edilmiş, Bakıda Dövlət Bayrağı Meydanı, həmin meydanda Dövlət Bayrağı Muzeyi yaradılmışdır.

Üçrəngli bayrağımızın paytaxtımızın ən möhtəşəm guşəsində və analoqu olmayan hündürlükdə dalğalanması həm də xalqımızda milli özünüdərk ideallarını, həmrəylik duyğularını artırır. Dövlət Bayrağı Meydanı dövlətçiliyimizin şərəfli tarixi, onun hansı təməl prinsiplərinə, idealoji sütunlara söykəndiyini nümayiş etdirməklə yanaşı, xalqımızın öz müstəqil dövlətini qorumaq, inkişaf etdirmək, əbədi yaşatmaq əzmini möhkəmləndirir.

Sevinirik ki, sorağı dünyanın müxtəlif dənizlərindən gələn gəmilərimizin dor ağacında da müstəqilliyimizin, suverenliyimizin rəmzi olan üçrəngli bayrağımız dalğalanır. Bu həm də harada üzmələrindən asılı olmayaraq, gəmilərimizin müstəqil Azərbaycanımızın bir parçası olduğunun təsdiqidir.

Möhtərəm Prezidentimizin böyük məharətlə həyata keçirdiyi uğurlu siyasət, Azərbaycanın dünyanı heyrətləndirən, düşmənlərinin belə etiraf etdiyi iqtisadi tərəqqisi, ordumuzun Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilməsi isə yaxın gələcəkdə erməni işğalı altında olan bütün torpaqlarımızda da



Dövlət Bayrağımızın dalğalanacağına hər birimizdə qəti əminlik yaradır.

Dalğalan, Bayrağım mənim! Dalğalan, sevincim mənim! Dalğalan, qürurum mənim! Dalğalan!!!

**Rasif TAHİROV**

# Dənizçilik təhsili sahəsində əməkdaşlıq genişlənir









**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri R.Vəliyevin dəvəti ilə Rusiyanın admiral S.O.Makarov adına Dövlət Dəniz və Çay Donanması Universitetinin rektoru, professor S.O.Barışnikov noyabrın 4-dən Bakıda səfərdə olub.**

Dənizçilik təhsili sahəsində əməkdaşlığın genişləndirilməsi və işgüzar əlaqələrin möhkəmləndirilməsi məqsədi daşıyan səfər çərçivəsində qonaq Heydər Əliyev Mərkəzi, Dövlət Bayrağı Meydanı Kompleksi, paytaxtımızın məşhur muzeyləri və tarixi yerləri ilə də tanış olmaq imkanı əldə edib.

Gəmiçilikdə keçirilən görüşdə qonağa dəniz nəqliyyatına dövlət qayğısı, AXDG-nin imkanları və inkişaf perspektivləri, kadr hazırlığının təkmilləşdirilməsi, bu istiqamətdə atılan addımlar barədə ətraflı məlumat verilib. “AXDG” QSC-nin sədri R.Vəliyev Rusiyanın dənizçi kadrlar hazırlayan ən nüfuzlu universitetlərindən biri ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi arasında bağlanmış əməkdaşlıq müqaviləsini yüksək qiymətləndirərək, gələcək birgə fəaliyyətdə uğurlar arzulayıb. S.Barışnikov ölkəmizdə qonaqpərvərliklə qarşılandığına, Azərbaycanla yaxından tanış olmaq üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirib.

Noyabrın 5-də S.Barışnikov Azərbaycan Dövlət Dəniz Akademiyasında olub, Akademiyanın rəhbərliyi, professor-müəllim heyəti ilə görüşüb. Görüşdə iki ali məktəb arasında tələbə və müəllim mübadiləsi, elmi-pedaqoji kadrların hazırlanması və tədris-metodiki vəsaitlərin işlənməsi sahələrində birgə fəaliyyət proqramı müzakirə edilib. Qonaq Akademiyanın nəzdindəki Dənizçilərin Hazırlanması və Sertifikatlandırılması Mərkəzində də tədris prosesi, təlim trenajorları ilə yaxından tanış olub.

Sonra Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasında görüş keçirilib. ARDDA-nın rəisi Q.Qurbanov Rusiya universitetinin rektoru ilə dənizçilik sahəsində kadr hazırlığının səviyyəsinin yüksəldilməsi imkanları barədə fikir mübadiləsi aparıb.

# Xəzərdə ən böyük kran gəmisi istismara qayıtdıqdan sonra “Şahdəniz-2” layihəsinin həyata keçirilməsində yaxından iştirak edəcək



**Respublikamızın ən müasir sənaye müəssisələrindən olan Bakı Gəmiqayırma Zavodunda “Azərbaycan” kran gəmisinin dok təmiri başa çatıb. Təxminən ayyarım davam edən təmir zamanı gəminin metal gövdəsi, lövbərləri, lövbər zəncirləri təmizlənərək rənglənib, 2 baş mühərriki təmir edilib, gəmi sistemləri və qurğuları yoxlanaraq sınaqdan keçirilib, kran mexanizmlərinin tənzimlənməsi işləri görülüb. Bundan əlavə, yaxın günlərdə gəmidə bir sıra modernizasiya işlərinin aparılması da nəzərdə tutulub.**

Qeyd etmək lazımdır ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus, uzunluğu 127, eni 34 metr olan “Azərbaycan” kran gəmisi öz ölçülərinə və kranının yükqaldırma qabiliyyətinə (2500 ton) görə Xəzərdə ən böyük və güclü kran gəmisidir. Bu səbəbdən gəmi regionda ən iri üzən doka qaldırılıb.

Dəniz özülləri bloklarının yüklənməsi, boşaldılması, daşınması, dənizdə 200 metrədək dərinlikdə qoyulması kimi mürəkkəb əməliyyatların öhdəsindən bacarıqla gələn “Azərbaycan” kran gəmisi istismara qayıtdıqdan sonra “Şahdəniz-2” layihəsinin həyata keçirilməsində yaxından iştirak edəcək.

# Xəzərin sahilyanı əraziləri su altında qala bilər

**"2016-cı ildə Xəzər dənizinin səviyyəsindəki enmə dayanacaq və yavaş-yavaş yüksəlməyə başlayacaq". Bu sözləri Xəzər dəniz elmi-tədqiqat mərkəzinin direktoru Sergey Monaxov deyib. Monaxovun sözlərinə görə, 6-7 il ərzində dənizin səviyyəsində 30-40 sm artım hiss olunacaq. Alim qeyd edib ki, Xəzər dənizinin suyunun artımında Volqa çayının da payı olacaq: "2017-ci ildə Volqa çayının suyunun həcmində ciddi dəyişiklik baş verəcək. Biz qorxuruq ki, Xəzər dənizi sahilində yerləşən Həştərxan şəhəri su altında qalsın. Bütün bunlar atmosferdə baş verən dəyişikliklərdən asılıdır".**



Amma Azərbaycan Coğrafiya İnstitutunun Ekocoğrafiya şöbəsinin müdiri Ənvər Əliyev Sergey Monaxovun fikirləri ilə tam razı deyil: "Ümumiyyətlə, təbiət hadisələrini əvvəlcədən proqnozlaşdırmaq çətindir. Bununla belə, Xəzər dənizinin birdən-birə o qədər qalxması real görünmür. Gərək Xəzər dənizinin səviyyəsi 2 metrdən çox qalxa ki, şəhərlər su altında qala. Ancaq proqnozları doğrudursa, Xəzər boyu olan ovalıqlar, Kür-Araz ovalığının bir hissəsi, Lənkəran, Samur-Dəvəçi ovalığı su altında qala bilər. Orada olan tikililər təhlükə qarşısında qalacaq.

Onu da nəzərə alaq ki, Xəzər dənizinin dörd tərəfi isti iqlim şəraitindədir. Su qalxarkən boşluqlar su ilə dolacaq. Bu zaman isə buxarlanma çoxalır. Ən əsas problem isə müxtəlif tikintilərin su altında qalmasıdır. Odur ki, əgər deyilən proqnozlar doğrudursa və Həştərxan su altında qalarsa, Bakı da eyni təhlükəni yaşaya bilər".

Ənvər Əliyev hesab edir ki, Xəzər dənizi birdən-birə o qədər qalxa bilməz: "Suyun səviyyəsinin qalxması tədricən ola bilər. Ən yaxşı halda 5-10 santimetr qalxa bilər. Bütün bunlar isə iqlim şəraitindən asılıdır. İqlim şəraiti periodik olaraq dəyişdikcə Xəzər dənizinin səthində qalxmalar və enmələr müşahidə edilir. Ancaq hansısa şəhəri su altında qalacaq qədər dənizin qalxması inandırıcı deyil. Hələlik Xəzərdə belə bir təhlükə görünmür. Xəzər dənizi adətən 1.2-2 metr qalxıb-enib. Dənizin səviyyəsinin qalxıb-enməsi əsasən iqlim şəraitindən, yağıntıların miqdarından asılıdır. Burada da qanunauyğunluq mövcuddur. Uzunmüddətli periodika var ki, hadisələr 30 ildən bir baş verir. Ancaq hazırda Xəzər dənizinin səviyyəsi orta vəziyyətdədir".

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, kimya elmləri doktoru, professor İslam Mustafayev da hazırda Xəzərdə belə bir təhlükə üçün əsas görmür: "Xəzər dənizi 1998-ci ildə maksimum səviyyəyə qalxdı. O zaman Lənkəran ətrafında 50 min hektar ərazi su altında qaldı. Hətta ekoloji qaçqınlar meydana gəlmişdi. Yəni, Xəzər dənizinin səviyyəsi bir daha qalxarsa, ondan böyük fəsadların olacağına inanmıram. Çünki, artıq təhlükəsizlik tədbirləri görülüb.

Həmçinin, Xəzərin qalxması ilə Həştərxanın su altında qalması tarixdə olmayıb. Odur ki, bu cür ekstremal vəziyyətin yaranmasına şübhə ilə yanaşmaq lazımdır. Ancaq dəniz suyunun səviyyəsinin periodik qalxıb-enməsi olur. Həştərxan su altında qalarsa, Azərbaycanda ondan da böyük fəlakətlər ola bilər".

Professor əlavə edib ki, suyun səviyyəsinin qalxmasının səbəbləri bəllidir: "Ancaq dənizdə suyun səviyyəsinin qalxmasının digər səbəbləri var. Məsələn, çoxsulu illər olur. Buzlaqlar əriyir və dənizlərdə suyun səviyyəsi qalxır. Xəzər dənizinin səviyyəsi Volqa çayı ilə təyin olunur. Çünki, Xəzərin suyunun 80%-dən çoxu Volqa çayından gəlir. Ona görə də şimal tərəfdə buzlaqların əriməsi ilə bağlı Xəzərə çoxlu su gələ bilər.

Digər variant isə dənizin relyefinin dəyişməsi, dibinin qalxmasıdır. Onunla bağlı dənizin səviyyəsi qalxa bilər. Hazırda isə belə bir təhlükə yoxdur. Ümumiyyətlə, dənizlərin səviyyəsinin birdən-birə ekstremal səviyyədə qalxması hadisələri olmayıb. Okeanlara məxsus hadisələr qapalı dənizlərdə olmur. Dənizdə il ərzində bir neçə santimetr və ya bir metr qalxma ola bilər".

**M. BAYRAMOV**

# İnsanın, onun hüquqlarının və azadlıqlarının ali dəyər kimi qəbul olunması Konstitusiyamızın əsas qayəsini təşkil edir




**İyirmi il əvvəl, 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək ümumxalq səsverməsi - referendum yolu ilə ölkəmizin müstəqilliyi dövründə ilk Konstitusiyasını qəbul etdi.**

Vətəndaş, cəmiyyət və dövlət arasında mühüm ictimai münasibətləri tənzimləyən, demokratik, hüquqi dövlət və ictimai quruluşun əsaslarını, siyasi sistemin təşkili prinsiplərini, bütövlükdə dövlətin fəaliyyət konsepsiyasını və gələcək prioritetlərini müəyyənləşdirən konstitusiyalar bütün dövlətlərin əsas qanunu kimi çıxış edir.

Müasir demokratik dövlətlərin qanunvericilik sistemlərinin əsası olan konstitusiyaları bütün digər hüquqi aktlardan fərqləndirən səciyyəvi xüsusiyyətlər mövcuddur. Bunların sırasında konstitusiyaların xalq tərəfindən qəbul edilməsi, təsisedici mahiyyət daşıması, cəmiyyət həyatının bütün sahələrini əhatə etməsi, aliliyi və ən yüksək hüquqi qüvvəsi, qəbul olunması və onlara əlavə və dəyişikliklərin edilməsinin xüsusi qaydasının nəzərdə tutulması kimi xüsusiyyətləri sadalamaq mümkündür.

Müstəqil Azərbaycan dövlətinin ilk milli Konstitusiyasının qəbulu Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz Konstitusiya layihəsini hazırlayan xüsusi komissiyaya bilavasitə sədrlik etmiş, cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə Konstitusiya layihəsinin açıq müzakirəlirini təşkil etmiş, onun müasir dəyərləri özündə ehtiva edən formada qəbul olunmasını təmin etmək üçün gərgin əmək sərf etmişdir. Bu ümummilli əhəmiyyətli sənədin 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbulu Azərbaycan dövlətçiliyinin inkişafı tarixində yeni səhifənin başlanğıcını qoymuşdur.

Konstitusiyanın qəbul edilməsi sadəcə yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, həm də ölkəmizin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi. Bu mərhələ siyasi sistemin mərkəzində insanın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir. İnsanın, onun hüquqlarının və azadlıqlarının ali dəyər kimi qəbul olunması ölkə Konstitusiyasının əsas qayəsini təşkil edir.

Konstitusiyanın Preambulasında Azərbaycan xalqının özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq və suveren hüququndan istifadə edərək bəyan etdiyi ülvi niyyətləri sadalanır. Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əminamanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək xalqımızın niyyətləri sırasında bəyan edilmişdir.

Konstitusiya Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik akt olmaqla, Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasını təşkil edir. Ölkə Konstitusiyasında müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən mütərəqqi ideya və dəyərlər geniş şəkildə əksini tapıb. Bunların sırasında insan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyəti orqanlarının demokratik qaydada formalaşdırılması, insan hüquqlarının səmərəli müdafiəsi mexanizimlərinin mövcudluğu, siyasi sistemində plüralizmə təminat verilməsi, sosial ədalətə nail olmaq, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və digər prinsip və dəyərlər xüsusi əhəmiyyət kəsb edir.

Konstitusiya Azərbaycanın konstitusiya quruluşunun vacib əsası kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etməyi və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Konstitusiyada nəzərdə tutulur ki, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edib, insan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin olunmasını dövlətin ali məqsədi kimi təsbit edib.

Dövlət hakimiyyətinin təşkilinin hakimiyyətlərin bölünməsi prinsipinə əsasən aparılması hüquqi dövlətin təməl prinsiplərindən biri olmaqla, Konstitusiyada təsbit edilib. Konstitusiyaya əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Ölkədə sağlam siyasi mühitin formalaşmasına imkan verən, vətəndaşların cəmiyyətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirakını nəzərdə tutan siyasi plüralizm kimi mühüm prinsip də Əsas Qanunda öz əksini tapıb.

Konstitusiya quruluşunun xüsusiyyətlərindən biri kimi iqtisadi fəaliyyət azadlığı, mülkiyyət növlərinin müxtəlifliyi və onların bərabər müdafiəsinə verilən təminat, hər bir şəxs üçün layiqli həyat şəraitinin və azad inkişafın təmin olunmasına istiqamətlənmiş sosial dövlət konsepsiyası ölkə Konstitusiyasında geniş əksini tapıb. Konstitusiya xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalmağı dövlətin üzərinə vəzifə olaraq qoyur. Əsas Qanunda qeyd edildiyi kimi, Azərbaycanda iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir, Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin tərəqqisinə yardım göstərir, xalqımızın tarixi, maddi və mənəvi irsini qoruyur.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsinin, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşdirilməsi, dövlətin üzərinə hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat vermək vəzifəsinin qoyulması müstəsna əhəmiyyət kəsb edir. Bu o deməkdir ki, ölkə Konstitusiyası dövlətin hər hansı abstrakt maraqlara deyil, məhz vətəndaşların mənafelərinə, azad cəmiyyətin aparıcı qüvvəsi olan insanın maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan edir.

Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası öz tarixinin böyük tərəqqi ilə xarakterizə olunan dövrünü yaşayır. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi, siyasi, hüquqi, mədəni və digər sahələrdə mühüm nailiyyətlərlə müşayiət olunur. Hüquqi dövlət ideya və prinsiplərinin bərqərar edilməsi, əhalinin sosial rifahının günbəgün daha da yaxşılaşdırılması, ölkə iqtisadiyyatının dinamik inkişafı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə tərəqqi - bütün bunlar düşünülmüş milli strategiyanın tərkib hissəsi olaraq davamlı xarakter daşıyır.

## Sərnişin gəmilərinin texniki vəziyyətinə xüsusi diqqət yetirilir

**Qarşıdakı payız-qış aylarında dəniz neftçilərinin iş yerlərinə rahat çatdırılması Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin önəmli vəzifələrindən biridir. Bu səbəbdən neftçilərə xidmət edən gəmilərin texniki vəziyyətinə xüsusi diqqət yetirilir.**

"Bibiheybət" Gəmi Təmiri Zavodunda bir aydır ki, dok təmirinə saxlanılan "General Əsədov" gəmisinin sualtı hissəsi tam təmizlənərək rənglənib, baş və köməkçi mühərrikləri təmir olunub, hava kompressorları, nasosları, bütün elektrik avadanlığı yoxlanaraq tənzimlənib. Gəminin avar valı, əsas və köməkçi sükan qurğularında da təmir işləri görülüb.

Hazırda "General Əsədov"un suüstü hissəsi və göyərtələri təmizlənərək rənglənir, xilasetmə qurğusunda, yaşayış və xidməti otaqlarında zəruri təmir işləri aparılır.

Gəmi istismara hazır olandan sonra həm də Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri üçün təlim-təcrübə məqsədlərinə xidmət edəcək, gənclər burada şərəfli dənizçi peşəsinin incəliklərinə yiyələnəcəklər.

Daha bir sərnişin gəmisi - dəniz neftçilərinə xidmət göstərən 67 nəfərlik "MPK-470" bu ilin may ayından "Bibiheybət" Gəmi Təmiri Zavodunda əsaslı təmirə dayanıb. Təmir müddətində gəmidə gövdə-qaynaq işləri ilə yanaşı, mexaniki və elektrik hissələrində bütün zəruri yoxlama və təmir işləri görülüb. Hazırda körpüdə sınaq işləri aparılır, gəmi gövdəsinin rənglənməsi prosesi yekunlaşmaq üzrədir.

## "VİXR-5" yanğınsöndürən gəmisinin təmiri sona çatıb

**Bu il aprel ayının 2-dən cari təmirə dayanan "VİXR-5" gəmisi əvvəlcə doka qaldırılaraq, gövdəsi təmizlənib və rənglənib. Daha sonra isə gəminin baş və köməkçi mexanizmləri, yaşayış və xidməti otaqları təmir edilib.**

Təmirdən sonra "VİXR-5" Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin ARDNŞ Obyektlərinin Yanğından Mühafizə İdarəsinin istifadəsində olacaq.

Qeyd edək ki, həmin tipdən olan "VİXR-3" gəmisi də plan təmirinə dayanıb. Bu gəminin cari ilin sonunadək istismara qaytarılması nəzərdə tutulub.




## "Frau Mariya" Aland adaları yaxınlığında aşkar edilib

**Bu yaxınlarda "Badewanne" tədqiqat qrupu Fin körfəzinin dibində XVIII əsrə aid qədim taxta gəmi görüb. Maraqlıdır ki, gəmi haqda heç bir arxivdə məlumat yoxdur, onun üzərində gəminin adı yazılmış lövhə də tapmaq mümkün olmayıb və korpusunda qəzaya uğradığını göstərən heç bir izə rast gəlinməyib. Körfəzin dibində olan gəminin hətta dor ağacları toxunulmaz qalıb.**

Elə orada - Fin körfəzində Hollandiyaya məxsus yelkənli "Frau Mariya" gəmisi də qalmaqdadır. Uzunluğu iyirmi metrə çatan ikidorlu gəmi 40 metr dərinlikdə yerləşir.

"Frau Mariya" 1771-ci ildə Amsterdamdan Baltik dənizinə çıxıb. Rəsmi versiyaya görə, o, Sankt-Peterburqa diplomatik poçt gətirirmiş. Eyni zamanda gəminin bortunda daha qiymətli yük - Rembrandtın şagirdləri tərəfindən çəkilmiş 20 rəsm əsəri də olub. Onlar knyaz Qolisin tərəfindən haaqalı kolleksioner Brandtdan I Yekaterina üçün alınıb.

Gəmi Almaniya, Danimarka və İsveçi uğurla keçsə də, Turku şəhəri yaxınlığında qasırğaya düşərək qayaya çırpılıb. Dənizçilər yerli balıqçılar tərəfindən xilas edilib, rəsm əsərlərinin isə altısını qasırğanın cəngindən qoparmaq mümkün olub...

"Frau Mariya" 1999-cu ildə beynəlxalq xəzinə axtaranlar qrupu tərəfindən Aland adaları yaxınlığında aşkar edilib. Bundan sonra xəzinənin kimə məxsus olması ilə bağlı Finlandiya və Rusiya arasında mübahisə başlayıb. İndi rəsmi hakimiyyət dairələrinin icazəsi olmadan kiminsə batmış rəsm əsərlərini çıxarması üçün bu rayon sahil mühafizə xidməti tərəfindən xüsusi nəzarət altına alınıb.

**Tahir DADAŞOV**

*"AXDG" QSC-nin 1 oktyabr 2015-ci il tarixli 183 saylı əmrinə qoşma 1*

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Ən yaxşı gəmi" müsabiqəsinin keçirilməsi qaydaları

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində (bundan sonra - Cəmiyyət) "Ən yaxşı gəmi" müsabiqəsinin (bundan sonra - müsabiqə) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Müsabiqənin keçirilməsində başlıca məqsəd istehsalat tapşırıqlarını layiqincə yerinə yetirən, təhlükəsizlik və keyfiyyət göstəriciləri ilə fərqlənən gəmiləri müəyyən etmək, nümunəvi heyət üzvlərinin təcrübəsini Donanmalarda geniş yaymaq, gəmilər arasında yenilikçilik uğrunda sağlam rəqabətin güclənməsinə zəmin yaratmaq və Cəmiyyətin diqqətini heyət üzvlərinin inkişafı ilə bağlı məsələlərə yönəltməkdən ibarətdir.

1.3. Müsabiqə ildə bir dəfə, ilin sonunda Cəmiyyət tərəfindən müəyyən edilən vaxtda həyata keçirilir.

1.4. Müsabiqədə bu Qaydaların 2-ci bəndində müəyyən edilmiş meyarlara cavab verən hər bir gəmi iştirak edə bilər.

1.5. Müsabiqənin keçirilməsinə rəhbərlik və nəzarət, tərkibi Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilən "Ən yaxşı gəmi" müsabiqəsinin keçirilməsi üzrə Təşkilat komitəsi (bundan sonra - Təşkilat komitəsi) tərəfindən həyata keçirilir.

1.6. Təşkilat komitəsinin tərkibinə "AXDG" QSC Sədrinin yanında Məsləhət Şurası və Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri də daxil edilə bilər.

1.7. Müsabiqə prosesində mərhələlər üzrə qiymətləndirmə balları bu qaydaların 2-ci bəndində göstərilmiş hər meyar üzrə 5 bal sistemi ilə müəyyən edilir.

**2. Müsabiqədə qiymətləndirmə meyarları**

Müsabiqədə iştirak edən gəmilər aşağıdakı meyarlar üzrə qiymətləndirilirlər:

2.1. Gəminin texniki vəziyyətinin səviyyəsi;

2.2. Gəmi heyətinin işdə nizam-intizam qaydalarına əməl etməsi;

2.3. Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi qaydaları, ISO 9001:2008 Keyfiyyətin İdarə olunması Standartı, OHSAS 18001:2007 Peşə Təhlükəsizliyi və Əməyin Mühafizəsinin İdarə olunması Standartı və İSO 14001:2004 Ekoloji İdarəetmə Standartlarının, habelə İMO-nun İSM kod 2010 BDT-nin "Gəmilərin Təhlükəsiz Hərəkəti və Çirklənməyə qarşı İSM Məcəlləsi"-nin tələblərinə cavab verən İnteqrasiya olunmuş Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ekoloji İdarəetmə Sistemindən istifadə etməklə, yüksəkkeyfiyyətli əmək, sağlamlıq və təhlükəsizlik standartları Sisteminin tələblərini pozmaması;

2.4. Gəminin istismarı zamanı təmizliyə və istehsalat etikası qaydalarına riayət edilməsi;

2.5. Gəminin qorunub saxlanması və düzgün istismar edilməsinə əməl edilməsi;

2.6. Cəmiyyətin Sədrinin yanında Məsləhət Şurası və Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, o cümlədən podratçı təşkilatlar arasında aparılan sorğularda gəmi haqqında müsbət mülahizə və rəylərin irəli sürülməsi;

2.7. Gəminin müsabiqədə iştirakı üçün əhəmiyyətli olan digər zəruri göstəricilər.

**3. Müsabiqənin təşkili**

3.1. Müsabiqə üç mərhələdə keçirilir.

3.2. Müsabiqənin mərhələlər üzrə keçirilmə müddətləri Cəmiyyət tərəfindən müəyyən edilir.

3.2.1. Birinci mərhələdə donanmalarda Cəmiyyətin aidiyyatı departament nümayəndələrinin iştirakı ilə gəmiçilik sahəsində nüfuzlu mütəxəssislər, donanmanın inkişafı üzrə təcrübəli işçilər, müsabiqə materiallarının qiymətləndirilməsində səriştəsi olan şəxslər daxil edilməklə yaradılan işçi qrupları iddiaçı gəmilərin bu Qaydaların 2-ci bəndində qeyd edilən meyarlar üzrə qiymətləndirilməsini aparır.

3.2.2. Hər donanmada müsabiqə iştirakçılarından ən yüksək bal toplamış 5 (beş) gəmi seçilir və təsdiqləyici sənədlərlə birlikdə Təşkilat komitəsinə göndərilir.

3.3. Cəmiyyət tərəfindən müəyyən edilmiş müddətdən sonra müsabiqədə iştirak etmək üçün Təşkilat komitəsinə təqdim edilən sənədlər qəbul edilmir.

3.4. İkinci mərhələdə Təşkilat komitəsi tərəfindən Donanmaların təqdim etdiyi məlumatların işlənilməsi prosesində gəminin əhəmiyyətli göstəriciləri hesab oluna biləcək xüsusi hallar da nəzərə alınmaqla fəaliyyəti, bu Qaydaların 2.1. bəndində geyd edilən meyarlar üzrə 5 (beş) bal sistemi ilə qiymətləndirilir.

3.5. Hər donanma üzrə daha çox bal toplamış 2 (iki ) gəmi Təşkilat komitəsinin qərarı ilə üçüncü mərhələyə buraxılır.

3.6. Bu mərhələdə Təşkilat komitəsi tərəfindən gəmilər haqqında təqdimatlar dinlənilir.

3.6.1. Dinləmələrdə gəmi 3-5 heyət üzvü ilə təmsil oluna bilər;

3.6.2. Gəminin kapitanı gəminin fəaliyyəti barədə 10 dəqiqəlik təqdimatla çıxış edir və verilən sualları cavablandırır;

3.6.3. Təşkilat komitəsinin hər bir üzvü təqdimatı bu qaydaların 3.7. bəndində göstərilən hər meyar üzrə 5 (beş) bal sistemi ilə qiymətləndirir;

3.6.4. Yekun bal ümumi müzakirələrin nəticəsinə görə müəyyən edilir.

3.7. Təqdimatın qiymətləndirilməsi zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

3.7.1. Təqdimatın tamlığı və zəruri məsələləri əhatə etməsi;

3.7.2. Gəminin fəaliyyətinin, Gəmiçiliyin hədəfləri uğrunda heyətin səylərinin real faktlarla diqqətə çatdırılması;

3.7.3. Cavabların əsaslandırılması və inandırıcı xarakter daşıması;

3.7.4. Gəmini təmsil edən nümayəndə heyətinin vahid məqsəd uğrunda birlik nümayiş etdirməsi;

3.7.5. Gəminin fəaliyyətinin perspektivləri və gözlənilən nəticələri haqqında aydın təsəvvürün yaradılması.

**4. Müsabiqənin yekunu**

4.1. Təşkilat komitəsi hər Donanma üzrə daha çox bal toplamış 1 (bir) gəmi seçir və müsabiqənin yekununu protokolla rəsmiləşdirir.

4.2. Hər Donanma üzrə daha çox bal toplamış gəmilərin siyahısı, müsabiqənin yekunlarına dair qısa məlumat əlavə edilməklə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədrinə təqdim edilir.

4.3. Hər Donanma üzrə daha çox bal toplamış gəmilər "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Sədrinin əmri ilə "Ən yaxşı gəmi" mükafatı ilə mükafatlandırılır.

4.4. Gəmiyə verilmiş mükafat donanma rəisinin əmrilə gəmi rəhbərliyinin təqdimatı əsasında, heyət üzvləri arasında onların bu gəmidə işlədikləri vaxta və vəzifə maaşlarına mütənasib bölüşdürülür.

*"AXDG" QSC-nin 1 oktyabr 2015-ci il tarixli 183 saylı əmrinə qoşma 2*

# Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik" və "Ən yaxşı elektrik mexaniki" müsabiqəsinin keçirilməsi qaydaları

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik" və "Ən yaxşı elektrik mexaniki" müsabiqəsinin (bundan sonra - müsabiqə) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Müsabiqənin keçirilməsində başlıca məqsəd Donanmalarda çalışan səriştəli kapitan, mexanik və elektrik mexaniklərinin potensialını ortaya çıxarmaq, müasir tələblərə cavab verən qiymətləndirmə metodikası üzrə ən yüksək nəticələr əldə edən kapitanları, mexanik və elektrik mexaniklərini müəyyən etmək, onlara ustalıqlarını nümayiş etdirmək üçün səmərəli şərait yaratmaq, Cəmiyyətdə onların nüfuzunu və statusunu yüksəltmək, Gəmiçiliyin inkişafında kapitanların, mexanik və elektrik mexaniklərinin rolunun getdikcə artmasına nail olmaq və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsində stimullaşdırıcı tədbirlərin mühüm əhəmiyyət daşıdığını geniş ictimaiyyətin diqqətinə çatdırmaqdır.

1.3. Müsabiqə ildə bir dəfə, Cəmiyyət tərəfindən müəyyən edilən vaxtda həyata keçirilir.

1.4. Müsabiqədə əsas iş yeri Donanmaların gəmiləri olan hər bir kapitan, mexanik, elektrik mexaniki iştirak edə bilər.

1.5. Müsabiqənin keçirilməsinə rəhbərlik və nəzarət, tərkibi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədri tərəfindən təsdiq edilən "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik" və "Ən yaxşı elektrik mexaniki" müsabiqəsinin keçirilməsi üzrə Təşkilat komitəsi (bundan sonra - Təşkilat komitəsi) tərəfindən həyata keçirilir.

1.6. Təşkilat komitəsinin tərkibinə "AXDG" QSC Sədrinin yanında Məsləhət Şurası və Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri də daxil edilə bilər.

1.7. Müsabiqə prosesində mərhələlər üzrə qiymətləndirmə balları bu qaydaların 2.1. bəndində göstərilmiş hər meyar üzrə 5 bal sistemi ilə müəyyən edilir.

**2. Qiymətləndirmə meyarları**

1.8. Müsabiqədə iştirak edən gəmi kapitanları, mexanik və elektrik mexanikləri aşağıdakı meyarlar üzrə qiymətləndirilirlər*:

2.1.1. Peşə üzrə bilikləri;

2.1.2. Hədəflərə nail olma qabiliyyəti;

2.1.3. Gəmini təhlükəsiz idarəetmə qabiliyyəti (kapitanlar üçün);

2.1.4. Fövqəladə hallarda idarəetmə qabiliyyəti;

2.1.5. Təmir üzrə bacarıqları (mexanik və elektrik mexanikləri üçün);

2.1.6. Prosedurları icra etmək bacarıqları;

2.1.7. Əməyin təhlükəsizliyinə dair bilikləri;

2.1.8. Liderlik qabiliyyəti;

2.1.9, Qərar qəbul etmə bacarığı;

2.1.10. Təşəbbüskarlıq;

2.1.11. Münaqişələri idarəetmə qabiliyyəti;

2.1.12. Etibarlılıq və dürüstlük;

2.1.13. Müəyyən olunmuş prosedurları icra etmək bacarığı;

2.1.14. Nizam-intizam səviyyəsi;

2.1.15. Təhsil;

2.1.16. Mükafat və təltiflər.

**3.Müsabiqənin təşkili**

3.1. Müsabiqə üç mərhələdə keçirilir.

*(Davamı 5-ci səhifədə)*



*"AXDG" QSC-nin 1 oktyabr 2015-ci il tarixli 183 saylı əmrinə qoşma 2*

# Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik" və "Ən yaxşı elektrik mexaniki" müsabiqəsinin keçirilməsi qaydaları

*(Əvvəli 4-cü səhifədə)*

3.2. Müsabiqənin mərhələlər üzrə keçirilmə müddətləri hər il Cəmiyyət tərəfindən müəyyən edilir.

3.2.1. Birinci mərhələdə donanmalarda Cəmiyyətin aidiyyəti departament nümayəndələrinin iştirakı ilə gəmiçilik sahəsində nüfuzlu mütəxəssislər, donanmanın inkişafı üzrə təcrübəli işçilər, müsabiqə materiallarının qiymətləndirilməsində səriştəsi olan şəxslər daxil edilməklə yaradılan işçi qrupları iddiaçı kapitan, mexanik və elektrik mexaniklərinin bu Qaydaların 2-ci bəndində qeyd edilən meyarlar üzrə qiymətləndirməsini aparır.

3.2.2. Hər donanmada müsabiqə iştirakçılarından ən yüksək bal toplamış 5 (beş) kapitan, 5 (beş) mexanik və 5 (beş) elektrik mexaniki seçilir və təsdiqləyici sənədlərlə birlikdə Təşkilat komitəsinə göndərilir.

3.3. Cəmiyyət tərəfindən müəyyən edilmiş müddətdən sonra müsabiqədə iştirak etmək üçün Təşkilat komitəsinə təqdim edilən sənədlər qəbul edilmir.

3.4. İkinci mərhələdə Təşkilat komitəsi tərəfindən Donanmalardan daxil olan məlumatlar əsasında namizədlərin fəaliyyəti bu Qaydaların 2-ci bəndində geyd edilən meyarlar üzrə qiymətləndirilir.

3.5. Hər donanma üzrə daha çox bal toplamış 2 (iki) kapitan, 2 (iki) mexanik və 2 (iki) elektrik mexaniki Təşkilat komitəsinin qərarı ilə üçüncü mərhələyə buraxılır.

3.6. Üçüncü mərhələdə iştirakçılar özləri haqqında qısa məlumat verməklə Təşkilat komitəsinin təklif etdiyi mövzu ətrafında 10-15 dəqiqəlik təqdimatla çıxış edir və verilən sualları cavablandırırlar.

3.6.1. Təşkilat komitəsinin hər bir üzvü təqdimatı bu qaydaların 5.7. bəndində göstərilən meyarlar üzrə 5 (beş) bal sistemi ilə qiymətləndirir;

3.6.2. Yekun bal ümumi müzakirələrin nəticəsinə görə müəyyən edilir.

3.7. Təqdimatın qiymətləndirilməsi zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

3.7.1. Təqdimatın tamlığı və zəruri məsələləri əhatə etməsi;

3.7.2. Namizədin öz fəaliyyəti haqqında məlumatları və Gəmiçiliyin hədəfləri uğrunda səylərini real faktlarla diqqətə çatdırması;

3.7.3. Cavabların əsaslandırılması və inandırıcı xarakter daşıması;

3.7.4. Namizədin yüksək nəzəri və praktiki bilik və bacarıq nümayiş etdirməsi.

**4. Müsabiqənin yekunu**

4.1. Təşkilat komitəsi yuxarıda sadalanan meyarlara uğun olaraq hər donanma üzrə ən çox bal toplamış 1 (bir) kapitan, 1 (bir) mexanik və 1 (bir) elektrik mexanikini seçir və müsabiqənin yekununu müvafiq protokolla rəsmiləşdirir.

4.2. Müsabiqədə qalib gəlmiş kapitanların, mexanik və elektrik mexaniklərinin siyahısı və müsabiqənin yekunlarına dair qısa məlumat "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Sədrinə təqdim edilir.

4.3. Müsabiqədə qalib gəlmiş kapitanlar, mexanik və elektrik mexanikləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Sədrinin əmri ilə "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik" və "Ən yaxşı elektrik mexaniki" mükafatı ilə mükafatlandırılırlar.

*"AXDG" QSC-nin 1 oktyabr 2015-ci il tarixli 183 saylı əmrinə qoşma 3*

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı bosman" və "Ən yaxşı aşpaz" müsabiqəsinin keçirilməsi qaydaları

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Ən yaxşı matros", "Ən yaxşı motorçu"*, "Ən yaxşı bosman" və "Ən yaxşı aşpaz" müsabiqəsinin (bundan sonra - müsabiqə) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Müsabiqənin keçirilməsində başlıca məqsəd Donanmalarda çalışan səriştəli matros, motorçu, bosman və aşpaz potensialını üzə çıxarmaq, müasir tələblərə cavab verən qiymətləndirmə metodikası üzrə ən yüksək nəticələr əldə edən matros, motorçu, bosman və aşpazları müəyyən etmək, onlara ustalıqlarını nümayiş etdirmək üçün səmərəli şərait yaratmaq, Cəmiyyətdə onların nüfuzunu və statusunu yüksəltmək, rollarını qeyd etmək və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsində stimullaşdırıcı tədbirlərin mühüm əhəmiyyət daşıdığını geniş ictimaiyyətin diqqətinə çatdırmaqdır.

1.3. Müsabiqə ildə bir dəfə, Cəmiyyət tərəfindən müəyyən edilən vaxtda həyata keçirilir.

1.4. Müsabiqədə əsas iş yeri Donanmaların gəmiləri olan hər bir matros, motorçu, bosman və aşpaz iştirak edə bilər.

1.5. Müsabiqənin keçirilməsinə rəhbərlik və nəzarət, tərkibi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədri tərəfindən təsdiq edilən "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı bosman" və "Ən yaxşı aşpaz" müsabiqəsinin keçirilməsi üzrə Təşkilat komitəsi (bundan sonra - Təşkilat komitəsi) tərəfindən həyata keçirilir.

1.6. Təşkilat komitəsinin tərkibinə "AXDG" QSC Sədrinin yanında Məsləhət Şurası və Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri də daxil edilə bilər.

1.7. Müsabiqə prosesində mərhələlər üzrə qiymətləndirmə balları bu qaydaların 2.1. bəndində göstərilmiş hər meyar üzrə 5 bal sistemi ilə müəyyən edilir.

**2. Qiymətləndirmə meyarları**

2.1. Müsabiqədə iştirak edən matros, motorçu, bosman və aşpazlar aşağıdakı meyarlar üzrə qiymətləndirilirlər**:

2.1.1. Peşə üzrə bilikləri;

2.1.2. Hədəflərə nail olma qabiliyyəti;

2.1.3. Fövqəladə hallarda idarəetmə qabiliyyəti;

2.1.4. Prosedurları icra etmək bacarıqları;

2.1.5. Əməyin təhlükəsizliyinə dair bilikləri;

2.1.6. Nizam- intizam səviyyəsi;

2.1.7. Mükafat və təltiflər.

**3. Müsabiqənin təşkili**

3.1. Müsabiqə üç mərhələdə keçirilir.

3.2. Müsabiqənin mərhələlər üzrə keçirilmə müddətləri hər il Cəmiyyət tərəfindən müəyyən edilir.

3.2.1. Birinci mərhələdə donanmalarda Cəmiyyətin aidiyyətı departament nümayəndələrinin iştirakı ilə gəmiçilik sahəsində nüfuzlu mütəxəssislər, donanmanın inkişafı üzrə təcrübəli işçilər, müsabiqə materiallarının qiymətləndirilməsində səriştəsi olan şəxslər daxil edilməklə yaradılan işçi qrupları iddiaçı matros, motorçu, bosman və aşpazları bu Qaydaların 2-ci bəndində qeyd edilən meyarlar üzrə qiymətləndirməsini aparır.

3.2.2. Hər donanmada müsabiqə iştirakçılarından ən yüksək bal toplamış 5 (beş) matros, 5 (beş) motorçu, 5 (beş) bosman və 5 (beş) aşpaz seçilir və təsdiqləyici sənədlərlə birlikdə Təşkilat komitəsinə göndərilir.

3.3. Cəmiyyət tərəfindən müəyyən edilmiş müddətdən sonra müsabiqədə iştirak etmək üçün Təşkilat komitəsinə təqdim edilən sənədlər qəbul edilmir.

3.4. İkinci mərhələdə Təşkilat komitəsi tərəfindən Donanmalardan daxil olan məlumatlar əsasında namizədlərin fəaliyyəti bu Qaydaların 2-ci bəndində qeyd edilən meyarlar üzrə qiymətləndirilir.

3.5. Hər donanma üzrə daha çox bal toplamış 2 (iki) matros, 2 (iki) motorçu, 2 bosman və 2 (iki) aşpaz Təşkilat komitəsinin qərarı ilə üçüncü mərhələyə buraxılır.

3.6. Üçüncü mərhələdə iştirakçılar özləri haqqında qısa məlumat verməklə Təşkilat komitəsinin təklif etdiyi mövzu ətrafında 3-5 dəqiqəlik təqdimatla çıxış edir və verilən sualları cavablandırırlar.

3.6.1. Təşkilat komitəsinin hər bir üzvü təqdimatı bu qaydaların 5.7. bəndində göstərilən meyarlar üzrə 5 (beş) bal sistemi ilə qiymətləndirir;

3.6.2. Yekun bal ümumi müzakirələrin nəticəsinə görə müəyyən edilir.

3.7. Təqdimatın qiymətləndirilməsi zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

3.7.1. Təqdimatın tamlığı və zəruri məsələləri əhatə etməsi;

3.7.2. Namizədin öz fəaliyyəti haqqında məlumatları və Gəmiçiliyin hədəfləri uğrunda səylərini real faktlarla diqqətə çatdırması;

3.7.3. Cavabların əsaslandırılması və inandırıcı xarakter daşıması;

3.7.4. Namizədin yüksək nəzəri və praktiki bilik və bacarıq nümayiş etdirməsi.

**4. Müsabiqənin yekunu**

4.1. Təşkilat komitəsi 2.1. bəndində sadalanan meyarlar üzrə hər donanmadan ən çox bal toplamış 1 (bir) matros, 1 (bir) motorçu, 1 (bir) bosman və 1 (bir) aşpaz seçir və müsabiqənin yekununu müvafiq protokolla rəsmiləşdirir.

4.2. Müsabiqədə qalib gəlmiş matros, motorçu, bosman və aşpazların siyahısı və müsabiqənin yekunlarına dair qısa məlumat "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Sədrinə təqdim edilir.

4.3. Müsabiqədə qalib gəlmiş matros, motorçu, bosman və aşpazlar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Sədrinin əmri ilə "Ən yaxşı matros", "Ən yaxşı motorçu","Ən yaxşı bosman" və"Ən yaxşı aşpaz" mükafatı ilə mükafatlandırılırlar.

*Qeyd: 1. *Bu nominasiya üzrə elektriklərin də namizədliyi verilə bilər.*

*2.**Verilən qiymətlər aşağıdakıları əks etdirir:*

*- 5 "əla" -şəxsin qabiliyyətinin adi səviyyədən çox yüksək olduğunu bildirir;*

*- 4 "gözləndiyindən yuxarı" - şəxsin qabiliyyətinin yüksək olduğunu, məqbul hesab edildiyindən xeyli yaxşı olduğunu bildirir;*

*- 3 "qənaətbəxş" - şəxsin qabiliyyətinin tutduğu vəzifəyə uyğun olduğunu bildirir ;*

*- 2 "kafi" - şəxsin qabiliyyətinin gözləndiyindən aşağı olduğunu bildirir, lakin müvafiq təlim keçdiyi halda, o kifayət qədər inkişaf edə bilər;*

*- 1 "qeyri-qənaətbəxş" - şəxsin bu sahədə kifayət qədər qabiliyyətinin olmamasını və hətta təlim keçəcəyi halda belə, onun kifayət qədər inkişaf edəcəyinin mübahisəli olduğunu bildirir .*

*Qiymətləndirmə göstərilən meyarlar, namizədin təhsili və fəaliyyəti dövründə qazandığı mükafat və təltiflərə uyğun topladığı balların cəminə uyğun olaraq aparılır.*

*Namizədin meyarlar üzrə hesablanan ballarının cəminə təhsil səviyyəsinə görə müvafiq ali təhsili olduqda 5 bal, orta-ixtisas təhsili olduqda 3 bal, digər aşağı təhsil səviyyələri üzrə isə 1 bal əlavə edilir.*

*Namizəd dövlət mükafatları ilə təltif edildiyi halda ona əlavə - 5 bal, digər mükafatlarla təltif edildiyi halda isə əlavə 3 bal verilir.*



# Azərbaycan Qərbin müsəlman dünyası haqda yaratdığı "qorxulu obraz"ı alt-üst edir




**Azərbaycan qitə tarixində ilk mühüm idman hadisəsi olan Avropa Oyunlarını mükəmməl şəkildə təşkil etməklə, Avropaya öz oyunlarına sahibolma şansını bəxş etdi. Lakin dünyanın idman cameəsinin Avropa atletlərinin Bakıda qızğın mübarizəsinə diqqət kəsilməsi fonunda Qərb mediasının Azərbaycana "həsr etdiyi" mənfi materialların xronologiyası acı bağırsaq kimi uzanmaqdadır.**

Bu, istər-istəməz "Qərb Avropanın idmanına da tövhə verən Azərbaycana niyə bu qədər hücum edir?" kimi sual yaradır. Cavabı Qərbin apardığı siyasətdə tapmaq mümkündür: Azərbaycan Qərbin müsəlman dünyası haqda yaratdığı "qorxulu obraz"ı alt-üst edir.

2012-ci ildə ilk Avropa Oyunlarına ev sahibliyi hüququnu əldə edəndə elə Avropanın özündə Azərbaycanın bunu reallaşdırmaq iqtidarında olmadığı kimi iddialar ortaya atılırdı. Lakin Azərbaycan beynəlxalq idman yarışlarının təşkili üçün vacib olan üç amilə - iqtisadi inkişaf, stabillik və təcrübəyə malik idi. Cəmi 30 ay müddətində Avropa Oyunlarının təşkil olunması üçün həyata keçirilən işlər, Avropa standartlarına uyğun idman infrastrukturunun qurulması anti-Azərbaycan dairələrin iddialarını alt-üst etdi.

İyunun 12-də Cənubi Qafqazın ən böyük və müasir stadionu olan Bakı Olimpiya stadionunda təşkil olunan ilk Avropa Oyunlarının açılış mərasimi ilə Azərbaycan dünyaya öz təcrübəsini və bacarığını nümayiş etdirdi. Avropalıların özü Bakıda gördüklərini heç vaxt unutmayacaqlarını deyir, bu mükəmməl şou haqda danışırlar. Açılış günü "Twitter"də #Baku2015 həştəqinin dünya brendinə çevrilməsi də bunu sübut edir.

Oyunları izləmək üçün Bakıya gələn jurnalistlər indiyə qədər Olimpiya Oyunlarının keçirildiyi ölkələrdə bu qədər mükəmməl xidmətlə qarşılaşmadıqlarını etiraf edirlər.

Misal üçün, ispaniyalı jurnalist Ernesco Roco deyir: "İşimizi yüksək səviyyədə həyata keçirməyimiz üçün hər cür şərait var. Biz bunu hər yerdə görmürük".

Azərbaycanda lupa ilə "səhv" axtaran mediası eyni iddiaları təkrar-təkrar səsləndirməkdən yorulmurdu. Hətta əli hər şeydən üzülən "The Guardian" qəzetinin açılış mərasimi haqda "millilik çoxdur" deməkdən başqa yolu qalmadı. Bu daha çox əli ətə çatmayan pişiyin "çiydir" deməsinə bənzəyirdi. Azərbaycan isə bu "tir axtaranların" ittihamlarına fikir verməədən öz üzərinə düşən işi mükəmməl səviyyədə həyata keçirdi. Məhz bu amil Qərbə sərf etmir. Onların fikrincə, müsəlman ölkəsi olan Azərbaycan onların təsvir etdiyi formada - zəif, anti-demokrat, humanizmdən kənar ölkə olmalıdır. Əgər belə deyilsə, bu təsəvvür formalaşdırılmalı, mütləq şəkildə mənfi imic yaradılmalıdır. Məqsəd isə Qərb dairələrinin "müsəlman dünya sülhü üçün qorxuludur" afişası altında apardığı "mübarizəyə" haqq qazandırmaqdır.

Bu gün Qərbin, xüsusilə demokratiyadan çox bəhs edən ölkələrində islamafobiyanın cəmiyyətin ayrılmaz parçasına çevrildiyi açıq şəkildə müşahidə olunur. Hər gün hansısa Avropa ölkəsində müsəlmanlara qarşı hücumların edildiyi xəbəri manşetlərə çıxır. Qərb hökumətləri buna qarşı olduqlarını deyir və islamafobiya ilə mübarizə görüntüsü yaradırlar. Lakin əslində necədir?

Avropada yaşayan yəhudi əsilli Roni Marqulies əsl səbəbi aydın şəkildə göstərir: "Bu gün ABŞ və Avropada şüurlu şəkildə müsəlmanlara qarşı ayrı-seçkilik edilir. Qərbdə islamafobiya 11 sentyabr hadisələrindən sonra ortaya çıxdı. Xüsusilə, Corc Buşun prezident olduğu dövrdə ABŞ-da və Avropada dövlətlərin əli ilə islamafobiya gücləndirildi. İslamafobiya siyasətinin konkret səbəbləri var. Avropa dövlətləri islamafobiya ilə mübarizə aparırlarmış kimi görünürlər. Çünki demokratik dövlət olduqlarını iddia edirlər. Lakin gizli şəkildə islamafobiya dəstəklənir. Çünki ABŞ bir tərəfdən İraqı, digər tərədən Əfqanıstanı işğal etdi. Bu gün də Yaxın Şərqdə müharibə aparır. Bu siyasətə legitimlik qazandırmağın yolu da müsəlmanlar haqda qorxulu obraz yaratmaqdan - islamafobiyadan keçir".

Göründüyü kimi, Qərb islamafobiyadan xarici siyasətdə vasitə olaraq istifadə edir və bu siyasətə nəinki açıq, hətta dolayısı yolla mane olanlar belə hədəf seçilir. Qərbin hədəfində iki məqsəd var: öz ölkələrinin ictimaiyyəti qarşısında Yaxın Şərqdə aparılan müharibəyə legitimlik qazandırmaq və Avropada çoxalan müsəlman miqrantları uzaqlaşdırmaq.

"Avrostat" mərkəzinin proqnozlarına görə, 2010-2060-cı illər ərzində Avropa İttifaqının əhali artımında immiqrasiyanın payı 17 faiz təşkil edəcək. Avropa ölkələrinə immiqrasiyanın yarısı isə müsəlman ölkələrinin payına düşür. Son statistikaya görə, Avropada təqribən 60 milyon müsəlman yaşayır.

Yəni, Avropanın gələcək taleyi müsəlmanlaşmaq təhlükəsi ilə üzüzədir. Gələcək taleyindən qorxan Qərb müsəlmanların "vəhşi", müsəlman ölkələrinin isə "təhlükəli" olduğu barədə təbliğat aparır. Birinci təbliğatla miqrant müsəlmanlar Avropadan uzaqlaşdırılır, ikinci ilə müsəlman ölkələrinə edilən hücuma haqq qazandırılır.

Belə bir vaxtda Azərbaycanın müsəlman ölkəsi kimi öz qüdrətini dünyaya nümayiş etdirməsi, hökumətlərinin "müsəlmanlar qorxuludur" təbliğatının hədəfinə çevrilən avropalının müsəlman ölkəsində humanizmi əyani şəkildə görməsi islamafobiya siyasətinə qarşı əsas maneə hesab olunur. Qərb bunu qəbul etmir, qəbul edə bilmir və son günlər "The Guardian", "The Times", "The Sunday", BBC, "Washington post" və bu kimi Qərbin "rupor"u rolunda çıxış edən media orqanlarının anti-Azərbaycan təbliğatının arxasında bu amil açıq şəkildə görünür.

# Dünyanı dəyişən kitablar

**1. "Quran"**

"Quran" İslam dininin müqəddəs kitabıdır. "Quran" müsəlmanlar tərəfindən Allahın sonuncu kitabı olaraq qəbul edilir. 1 milyarddan çox insan islam dininə tapınır və təbii ki, "Quran" dünyanı dəyişən kitablardan biridir.

**2. "İncil"**

Şübhəsiz "İncil" qədər dünyanı dəyişən ikinci kitab tapılmaz. Bu kitab yaranmasından 2 əsr sonra bütün Roma İmperiyasını bütpərəstlikdən xilas edib və imperiya əhalisi xristianlığı qəbul edib. O zamandan bəri xristianlıq dünyanın ən çox tərəfdara sahib dinidir.

**3. "Kommunist Partiyasının Manifesti" - Karl Marks və Fridrix Engels**

Marks və Engelsin bu traktatı tarixdə ən çox iz qoyan siyasi əsərlərdəndir. Manifest proletariatı burjua ictimai quruluşunu devirməyə və nəticədə bütün insanların bərabər olduğu sinifsiz bir quruluş yaratmağa çağırırdı.



**4. "Millətlərin sərvəti" - Adam Smit**

Bu kitab müasir dünya iqtisadiyyatı anlayışını formalaşdırıb - azad iqtisadiyyatı və rəqabəti. Kitabda Smit görünməz əl prinsipini irəli sürür, öz marağını güdmənin ümumilikdə cəmiyyətə faydalı olacağını deyir.

**5. "Növlərin mənşəyi" - Çarlz Darvin**

Kitab növlərin təkamülünün öyrənilməsində əvəzsiz rol oynayıb. Əsərdə növlərin zamanla təbii seçimi və yeni növlərin meydana gəlməsindən bəhs edilir. Bir çox dini inanca zidd olduğuna görə, Darvinin nəzəriyyələri çoxlu mübahisələrə səbəb olub.

**6. "Riyaziyyatın prinsipləri" - İsaak Nyuton**

Nyutonun 1687-ci ildə yazdığı bu əsər müasir fizika və riyaziyyat elmlərinin təməlini qoyub. Kitab 3 cilddən ibarətdir. Burada Nyutonun klassik mexanikanın təməli sayılan sürət qanunu, həmçinin ümumdünya cazibə qanunu haqqında fikirləri yer alır. "Riyaziyyatın prinsipləri" indiyə qədər yazılmış ən əhəmiyyətli elmi əsərlərdən biri sayılır.

**7. Qalileyin dialoqu**

Bu kitab əsrlər boyu müzakirə ediləcək "din, yoxsa elm" mübahisələrini başladan kitabdır. Əsər Qalileyin həbs olunmasına və yazıçılıq karyerasına son qoymasına səbəb olub. Həmin dövrdə mübahisələrə səbəb olan isə kitabın elmi təbliğ etməsi yox, Qalileyin Papanı ələ salması idi.

**8. "Tarix" - Herodot**

"Tarix" qədim dünya haqda biliklərimizin mənbəyi və Qərbdə tarix elminin əsasını qoyub.

Herodotun "Tarix" əsəri qərbdə tarixlə bağlı ilk əsər hesab olunur. Eramızdan əvvəl 440-cı ildə yunanca yazılan "Tarix" Yunan-fars müharibəsindən, V əsrdə Yunanıstanın şəhər-dövlətlərindən bəhs edir.

**9. "İkinci cins" - Simon de Bovuar**

"İkinci cins" Simon de Bovuarın ən məşhur əsəridir. Bu kitab feminizmin



əsas kitablarından sayılır. Kitabda Bovuar qadınlarla tarix boyu "ikinci cins" kimi davranıldığını iddia edir.

**10. "Yuxu yozmaları" - Ziqmund Freyd**

"Yuxu yozmaları" Freydin psixoanalizə ən böyük töhfəsi hesab olunur. Kitab ilk vaxtlarda çox az satılıb, hətta ilk 600 nüsxənin satılması üçün bir neçə il lazım olub. Freyd kitaba azı səkkiz dəfə yenilik edib.

# Borc bataqlığı

**Dövlətlərin xarici borcu dedikdə, adətən, inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrin borcları nəzərdə tutulurdusa, artıq bu tendensiya dəyişib. Belə ki, bu gün xarici borcu olan ölkələr sırasında inkişaf etmiş ölkələr yer alır. Əgər bu gün ölkələrin xarici borclarının azlığı üzrə siyahı yenidən tərtib olunsaydı, Azərbaycan hazırda inkişaf etməkdə olan ölkələr sırasında olsa da, bu siyahıda məhz inkişaf etmiş ölkələrdən yüksəkdə dayanardı.**

Bu günlərdə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, biz xarici borclanmaya meyilli deyilik: "Onsuz da manatın devalvasiyasından sonra bizim xarici borcumuz artıb. Çünki xarici dövlət borcu dollarla hesablanır və əgər devalvasiyaya qədər xarici dövlət borcumuz təxminən 7-8 fazi təşkil edirdisə, bu gün xarici borc 11-12 faizə qalxıb. Ona görə yox ki, biz əlavə kreditlər götürmüşük. Ona görə ki, manat qiymətdən düşüb. On iki faiz də çox gözəl göstəricidir. İnkişaf etmiş ölkələrin bəzilərində bu, 100 faizdən çoxdur. Ancaq biz istəyirik ki, xarici borcumuz 10 faizi keçməsin. Buna nail olmaq üçün biz gələcəkdə də öz fəaliyyətimizi ancaq daxili imkanlar hesabına qurmalıyıq".



Bu gün həqiqətən də bir sıra dünya ölkələrinin xarici borclarına nəzər saldıqda görürük ki, rəqəmlər nəzərəçarpacaq dərəcədə yüksəkdir. Balkan ölkələri arasında Bosniya və Hersoqovina, Serbiya və Albaniyanın Beynəlxalq Valyuta Fonduna (BVF) kifayət qədər borcu var. Bosniya və Hersoqovinanın təşkilata olan borcu 594 milyon avrodur. 1998-2012-ci illərdə BVF-dən dörd dəfə kredit alan Bosniya və Hersoqovinanın hazırkı ümumi xarici borcu isə 401 milyard avrodur. Son 14 il ərzində BVF-dən altı dəfə kredit alan digər Balkan ölkəsi Serbiyanın 2014-cü ilin sonundan bu quruma 462.55 milyon avro borcu var. Serbiyanın ümumi xarici borcu isə 11.9 milyard avrodur. Albaniya son dəfə 2014-cü ildə BVF-dən kredit alıb və borcu 429 milyon avro olub.

Dünyanın ən güclü ölkəsi kimi tanınan ABŞ-ın da borc bataqlığında olduğu qeyd edilir. ABŞ-ın 18 trilyon 112 milyard 975 milyon dollar borcu olduğunu deyən Amerika Konqresi bildirib ki, 4 sentyabrda hər bir Amerika vətəndaşına düşən borcun miqdarı 57 min dolları aşıb.

Dövlətin borc yükü baxımından ABŞ-ı 11 trilyon 500 milyard dollarla təqib edən İngiltərədə isə borc hər saniyədə 8 min 100 dollar artır. Növbəti sırada qərarlaşan Almaniyanın xarici borcu 6 trilyon dollardır.

Qeyd edək ki, borc rəqəmi idarə edilməyəcək vəziyyətdə olan Amerikada Senat bu il Amerika Mərkəz Bankının 11 trilyon 314 milyard dollar gizli krediti təmin etdiyini ortaya çıxartmışdı. ABŞ Konqresi Araşdırmalar Mərkəzinin hesabatına görə, hökumətin bu borcları faizləri ilə birlikdə ödəməsi çətindir. Beləliklə, ABŞ-ı yüksək dövlət borcu sıralamasında İngiltərə, Almaniya, Fransa, Hollandiya, İspaniya, İtaliya, İslandiya, Yaponiya, Lüksenburq, İsveçrə və Avstraliya izləyir. BMT-yə üzv olan 200-ə yaxın ölkənin ümumi borcu 70 trilyon dollara çatıb.

Türkiyənin "Sabah" qəzeti borclarıyla qorxulu rəqəmlərə sahib olan ölkələrin adlarını dərc edib. Qlobal böhran şəraitində yüzlərlə milyard dollarlıq xilas və təşviq paketləriylə xərcləmələrini artıran inkişaf etmiş ölkələr böyük bir borc problemi ilə qarşı-qarşıya qalıb. Bu borcların yeni bir böhrana səbəb ola biləcəyi narahatlığı böyükdür. Elə Amerikanın xarici borcu bu rəqəmlərin daha da artdığını göstərir. Fransada xarici borcun ÜDM-ə nisbəti 247.2 faizdir. Ümumi xarici borc 5.22 trilyon dollardır. Hollandiyada xarici borcun ÜDM-ə nisbəti 395.6 faiz, ümumi xarici borc 2.58 trilyon dollardır.

Danimarkanın ÜDM-ə nisbəti 315.2 faiz, xarici borcu 627.6 milyard dollar təşkil edir. İsveçrədə xarici borcun ÜDM-ə nisbəti 390 faiz, ümumi xarici borc 1.23 trilyon dollardır. İsveçin xarici borcunun ÜDM-ə nisbəti 275 faiz, ümumi xarici borc 916.42 milyard dollardır. İtaliyada xarici borcun ÜDM-ə nisbəti 154.6 faiz, ümumi xarici borc 2.71 trilyon dollardır. Avstriyada xarici borcun ÜDM-ə nisbəti 268.9 faiz, ümumi xarici borc 869.13 milyard dollardır. Macarıstanda xarici borcun ÜDM-ə nisbəti 124.2 faizdir. Ümumi xarici borc 231.33 milyard dollardır.

Qeyd edək ki, Azərbaycan hökuməti qlobal iqtisadiyyatda gedən mənfi proseslərin təsirini minumuma endirməkdən ötrü tədbirlər görür. Bugünlərdə Beynəlxalq Valyuta Fondunun "Dünya İqtisadi Proqnozları" adlı oktyabr hesabatında Azərbaycanla bağlı proqnozlar da bunun bariz göstəricisidir.

**N. ABDULLAYEVA**

*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Наибольшее благоприятствование — Ən əlverişli şərait
### MOST FAVOURED NATION TREATMENT

Режим межгосударственных экономических отношений, при котором на правах взаимности одно государство предоставляет физическим и юридическим лицам другого такие же благоприятные условия, какие оно предоставляет или будет предоставлять на своей территории физическим и юридическим лицам любого третьего государства.

Dövlətlərarası iqtisadi münasibətlər rejimi; Bu zaman qarşılıqlı hüquqlar əsasında bir dövlət digər dövlətin, həmçinin istənilən üçüncü dövlətin fiziki və hüquqi şəxslərinə öz ərazisində yaratdığı və ya yaradacağı əlverişli şəraitdir.

### Накладная — Qaimə
### WAYBILL

Транспортный документ, который оформляет акт отпуска и приема различных товаров, а также перевозки грузов. Накладная заполняется грузоотправителем и содержит следующие сведения: наименование, адрес отправителей и получателей груза и их банковские реквизиты, пункт отправления, назначения и перевалки, полное и точное наименование мест, массу и объем груза, отправительскую маркировку груза. Накладная регулирует отношения между перевозчиком, отправителем и получателем груза.

Müxtəlif malların buraxılmasını və qəbul edilməsini, habelə yüklərin daşınmasını rəsmiləşdirən nəqliyyat sənədi. Qaimə yükgöndərən tərəfindən doldurulur və ona aşağıdakı məlumatlar daxil edilir: yükü göndərənlərin və alanların adları; ünvanları və bank rekvizitləri; göndərilmə, təyinat və aşırılma məntəqələri; yük yerlərinin tam və dəqiq adı; kütləsi və həcmi; yükün göndərilmə markası. Qaimə yükü daşıyan, göndərən və alan arasında münasibətləri tənzimləyir.

### Наливом — Maye yüklər
### IN TANKS, IN BULK

Бестарная перевозка жидких грузов (нефти и нефтепродуктов, масел, спирта, жиров и т.п.) в специализированных транспортных средствах - танкерах (наливных судах), железнодорожных и автомобильных цистернах.

İxtisaslaşdırılmış nəqliyyat vasitələrində - tankerlərdə (mayedaşıyan gəmilərdə), dəmiryol və avtomobil sisternlərində maye yüklərin (neft və neft məhsulları, yağ, spirt, piylər və s.) tarasız daşınması

### Налог на фрахт — Fraxt vergisi
### FREIGHT TAX

Налог, взимаемый в некоторых странах с фрахта, получаемого судовладельцем при вывозе из страны экспортных грузов. Обычно в чартерах оговаривается, кто оплачивает этот налог. При отсутствии такой оговорки в чартере расходы на оплату налога несет судовладелец.

Bəzi ölkələrdə fraxtdan tutulan vergi, ölkədən ixrac yükləri daşınarkən gəmi sahibinin aldığı fraxtdan tutulur. Bu verginin kim tərəfindən ödəniləcəyi adətən çarterlərdə şərtləşdirilir. Çarterdə belə qeyd-şərt olmadıqda, verginin ödənilməsi üçün xərcləri gəmi sahibi çəkir.

### Национальность судна — Gəminin milliliyi
### NATIONALI1TY OF VESSEL

Государственная принадлежность судна, обозначающая подчиненность судна властям какого-либо государства и распространение на него законов этого государства. Одним из отличительных признаков национальности судна является флаг судна. Из факта предоставления судну национальности и права на флаг вытекает исключительность юрисдикции государства, флаг которого несет судно в открытом море. В соответствии со ст.5 Конвенции об открытом море и ст.91 Конвенции ООН по морскому праву государство "определяет условия предоставления своей национальности судам, регистрации судов на его территории и права плавать под его флагом". Одним из правовых условий предоставления судну национальности является его регистрация, т.е. внесение судна в судовой реестр данного государства. Кроме того, судно для подтверждения права на флаг и удостоверения своей национальности должно иметь следующие судовые документы: 1) свидетельство на право плавания под флагом; 2) свидетельство, удостоверяющее право собственности на судно; 3) мерительное свидетельство и др.

Gəminin dövlət mənsubiyyəti, gəminin hər hansı bir dövlətin hakimiyyətinə tabe olduğunu və bu dövlətin qanunlarının ona şamil edildiyini bildirir. Gəminin milliliyinin fərqləndirici əlamətlərindən biri gəminin bayrağıdır. Gəmiyə milliliyin və bayraq daşımaq hüququnun verilməsi faktından gəminin açıq dənizdə bayrağını daşıdığı dövlətin yurisdiksiyasının müstəsnalığı meydana çıxır. Açıq dəniz haqqında Konvensiyanın 5-ci maddəsinə və Dəniz hüququ haqqında BMT Konvensiyasının 91-ci maddəsinə müvafiq olaraq dövlət «öz milliliyinin gəmilərə verilməsi, onun ərazisində gəmilərin qeydiyyata alınması və onun bayrağı altında üzmə hüququnun verilməsi şərtlərini müəyyənləşdirir». Gəmiyə millilik verilməsinin hüquqi şərtlərindən biri onun qeydiyyata alınması, yəni müəyyən dövlətin gəmi reyestrinə gəminin adının daxil edilməsidir. Bundan başqa, gəmi bayrağa hüququnu təsdiq etdirmək və öz milliliyini sübut etmək üçün aşağıdakı gəmi sənədlərinə malik olmalıdır: 1) bayraq altında üzmək hüququ üçün şəhadətnamə; 2) gəmiyə mülkiyyət hüququnu təsdiqləyən şəhadətnamə; 3) ölçü şəhadətnaməsi və s.

### Национальный режим — Milli rejim
### NATIONAL TREATMENT

Правовой режим пребывания иностранных судов в порту в отношении объема льгот и преимуществ при заходе в порт, взимания определенных сборов, предоставления причалов и др. услуг. В тех случаях, когда договором устанавливается национальный режим, иностранные торговые суда пользуются в портах государства тем же режимом, что и отечественные торговые суда. Согласно Конвенции и Статуту о Международном режиме морских портов каждое государство обязуется обеспечить судам другого договаривающегося государства обращение, равное тому, которым пользуются его собственные суда в отношении свободы доступа в порт и его использования. В соглашениях о торговом судоходстве обычно предусматривается, что каждая договаривающаяся сторона предоставит судам др. стороны такой же режим, какой она предоставляет своим судам, занятым в международных сообщениях в отношении доступа в порты, их использования для погрузки и выгрузки грузов, посадки и высадки пассажиров, уплаты корабельных и др. сборов и налогов, осуществления обычных коммерческих операций и использования услуг, предназначенных для мореплавания.

Limana daxil olarkən, müəyyən rüsumlar alınarkən, körpülər verilərkən və s. xidmətlər göstərilərkən güzəşt və üstünlüklərin qədərinə münasibətdə limanda xarici gəmilərin olmasının hüquqi rejimi. Müqavilə ilə milli rejimin müəyyənləşdirildiyi hallarda xarici ticarət gəmiləri dövlətin limanlarında yerli ticarət gəmilərinin istifadə etdikləri rejimdən istifadə edir. Dəniz limanlarının beynəlxalq rejimi haqqında Konvensiyaya və Statusa əsasən hər bir dövlət razılığa gəldiyi digər dövlətin gəmilərinə də limana sərbəst daxil olmada və ondan istifadə etməkdə öz gəmilərinə göstərdiyi münasibəti təmin etməyi öhdəsinə götürür. Ticarət gəmiçiliyi haqqında sazişlərdə adətən razılığa gələn hər bir tərəfin beynəlxalq yükdaşımalarla məşğul olan gəmilərinə limanlara daxilolmada, limanlardan yüklərin yüklənməsi və boşaldılması, sərnişinlərin minməsi və düşməsi üçün istifadə etmədə, gəmi rüsumları və digər rüsumları, vergiləri ödəmədə, adi kommersiya əməliyyatlarını həyata keçirmədə və dəniz üzgüçülüyü üçün təyin olunmuş xidmətlərdən istifadəetmədə tətbiq etdiyi rejimi digər tərəfin gəmilərinə də tətbiq etməsi nəzərdə tutulur.

### Незамедлительное освобождения судна и его экипажа — Gəminin və heyətin təxirəsalınmadan azad edilməsi
### IMMEDIATE RELEASING VESSEL AND CREW

Предусмотрено Конвенцией ООН по морскому праву в тех случаях, когда власти государства - ее участника задерживают судно, плавающее под флагом др. государства - ее участника и не освобождают его после предоставления разумного залога или иного финансового обеспечения. Если в течение 10 дней со времени задержания судна стороны не достигнут соглашения о передаче спора любому суду или арбитражу, предусмотренному конвенцией, он передается на разрешение Международному трибуналу по морскому праву. Заявление об освобождении может быть сделано только государством флага судна или от его имени. Суд (или арбитраж) обязан срочно рассмотреть такое заявление. При этом он занимается только вопросом освобождения без ущерба для дальнейшего рассмотрения дела по существу в отношении судна, судовладельца или экипажа в соответствующем национальном суде. Суд (или арбитраж) может вынести решение о размере обеспечения, после предоставления которого власти задерживающего государства незамедлительно освобождают судно или его экипаж.

Dəniz hüququ haqqında BMT Konvensiyası ilə bu konvensiyanın iştirakçısı olan bir dövlətin hakimiyyət orqanları tərəfindən konvensiya iştirakçısı olan digər bir dövlətin bayrağı altında üzən gəminin tutulub saxlanıldığı və məntiqə uyğun girov və ya başqa maliyyə təminatı verildikdən sonra da onun azad edilmədiyi hallar üçün nəzərdə tutulmuşdur. Əgər gəminin tutulub saxlanıldığı vaxtdan keçən 10 gün ərzində tərəflər mübahisənin konvensiya ilə nəzərdə tutulan hər hansı bir məhkəməyə və ya arbitraja verilməsi haqda razılığa gələ bilməzlərsə, o, həll edilmək üçün dəniz hüququ üzrə Beynəlxalq tribunala verilir. Gəminin azad edilməsi haqqında bəyanat yalnız gəminin bayrağı altında üzdüyü dövlət tərəfindən və ya həmin dövlətin adından verilə bilər. Məhkəmə (yaxud arbitraj) belə bəyanatı dərhal nəzərdən keçirməlidir. Özü də bu zaman o, yalnız bir məsələ - sonradan müvafiq milli məhkəmədə gəmiyə, gəmi sahibinə və ya heyətə münasibətdə işin mahiyyəti üzrə baxılması üçün, indi gəminin zərərsiz azad edilməsi ilə məşğul olur. Məhkəmə (yaxud arbitraj) təminatın miqdarı barədə qərar çıxara bilər, bu təminat verildikdən sonra gəmini tutub saxlayan dövlətin hakimiyyət orqanları dərhal gəmini və ya onun heyətini azad edir.

*(Davamı var)*

## *Yeni hərbi gəmi istifadəyə verilib*

**ABŞ-ın Hərbi Dəniz Qüvvələrinə yeni, "USS Milwaukee" adlı hərbi gəmi verilib.**

Saatda 83 kilometr sürətlə hərəkət edən bu gəmi ABŞ-ın Hərbi Dəniz Qüvvələrində hazırda ən sürətli gəmilərdən biridir.



Gəmi tam sürətlə hərəkət edərkən ətrafında yaranan dalğaların hündürlüyü 1,5 metrdən artıq olur. Bildirilir ki, gəminin daimi məkanı San-Dieqo limanı olacaq. Məlumat üçün deyək ki, gəmini "Marinette Marine Corporation" şirkəti istehsal edib.

***Məlumatı CNN yayıb.***

## Qayıq qəzaya uğrayıb

**Yunanıstanda qayığın qəzaya uğraması nəticəsində 4 miqrant həlak olub.**

"Associated Press" agentliyinin verdiyi məlumata görə, hadisə Lesbos adası yaxınlığında qeydə alınıb. Ölənlərdən ikisinin uşaq olduğu bildirilir. İlkin məlumata görə, qayıqda 50 nəfər olub. Qeyd edək ki, son bir neçə gündə dənizdə baş verən qəzalarda 100-ə yaxın miqrant ölüb.

## "Bermud üçbucağı"nda itən gəmi tapılıb

**Baham adaları rayonunda bir ay bundan əvvəl yoxa çıxan ABŞ-ın "El-Faro" yük gəmisinin suyun 4600 metr dərinliyində tapıldığı ehtimal olunur.**

ABŞ Hərbi Dəniz Donanmasının nümayəndələri sualtı kəşfiyyat missiyasının nəticələrinə əsasən, bu informasiyanı dəqiqləşdirməlidir.



Xatırladaq ki, uzunluğu 241 metr olan yük gəmisi oktyabrın 1-də "Xoakin" qasırğası zamanı Atlantik okeanında radarlardan itib. Göyərtəsində 33 heyət üzvünün olduğu gəminin əvvəlcə mühərrikləri sıradan çıxıb, sonra anbarlarına su dolmağa başlayıb. Bundan sonra onunla əlaqə kəsilib. ABŞ Sahil Mühafizəsi Xidməti C-130 təyyarələrinin köməyi ilə bir neçə sutka gəmini və heyət üzvlərini axtarsa da, bu, nəticə verməyib. Bütün heyət üzvləri həlak olmuş sayılır.

## YARIZARAFAT, YARIGERÇƏK

- Bəzi adamlar elə yeriyirlər, elə yeriyirlər, elə bil yer üzündə nə varsa, onlar yaradıblar. Mən paxıl deyiləm, sadəcə bilmək istəyirəm ki, elədirsə, bəs onda Allah nə yaradıb?
- İkinin üstünə iki gələndə dörd edir. Sənə beş lazımdırsa, onda yeganə çarəsi ikinin üstünə üç gəlməkdir.
- Qudurmaq pis şeydir. İnsan istər bir ilə qudursun, istər on bir ilə!
- Nə qədər bacarırsansa, yaxşılara yaxşılıq et. Pisə də nə qədər bacarırsansa, pisliyə imkan vermə.
- İnsanların "sədaqət"ini görəndən sonra bəzilərinin heyvanlara sevgisini başa düşmək çətin deyil.
- İti atın yanında bağlayanda həmxasiyyət olurlar?
- Həyat, öyrənmək istəyənə hər gün dərs keçir.
- İstənilən məsələdə öz ağlına qənat etmə, qənaətə də öz ağlınla gəl.
- Sözün qiyməti qısalığındadır, qısaldılmış sözlərdə yox.
- Görəsən bəziləri nə vaxta kimi yetimə ağlamağı, həm də ürəkdən ağlamağı öyrədəcək?
- Qaçan da Allaha yalvarır, qovan da. Mən kimə yalvarım?
- Nadanla söz güləşdirmək güləşin ən maraqsız və əhəmiyyətsiz növüdür.
- Biz ən çox pis adamdan yaxşı nə isə gözləyəndə aldanırıq.
- Yalanı həqiqətdən həmişə ayırmaq lazımdır. Yoxsa bütün həyatımız qarışacaq.
- Bir bu gün iki sabahdan, min dünəndən yaxşıdır.
- Bəziləri özündən vəzifəcə kiçikləri burunlarının altında görməyə-görməyə, özündən böyükləri bir kilometrdən necə görürlər? Bu xəstəlik nə "uzaqdangörməyə" oxşayır, nə də "yaxındangörməyə".

**Rasif TAHİROV**



## "DƏNİZ"İN GÜLÜŞ PAYI

Travmatologiya xəstəxanasında cərrahiyyə əməliyyatı gedir.

- Həkim, mən ayağımı itirməyəcəyəm ki?

- Baxır, ayağınızı harada saxlayacaqsınız.

***

Uşağı həkimin qəbuluna gətirirlər. Həkim soruşur:

- Bala, səni nə isə narahat edir?

- Yox, məni heç nə narahat etmir. Babam narahatdır ki, saatını udmuşam.

***

- Həkim, məni şəxsən siz cərrahiyyə əməliyyatı edəcəksiniz?

- Hə, ildə heç olmasa bir dəfə özümü yoxlamağı xoşlayıram. Bilmək istəyirəm ki, bildiklərimdən yadımda nə isə qalıb.

***

- Həkim, düzü mən ancaq xoş günlərdə siqaret çəkirəm.

- Narahat olmayın, ildə biriki siqaret sağlamlıq üçün böyük təhlükə deyil.

***

- Ata, sinif rəhbəri səni məktəbə çağırır.

- Niyə?

- Mən də bilmirəm. Bir aydır onu görmürəm.

***

- Boks ən yaxşı idman növüdür.

- Siz boksçusunuz?

- Yox, mən diş həkimiyəm.

***

- Bağışlayın, siz siqaretin tüstüsünü o tərəfə verə bilməzsiniz?

- Onu bacarsaydım, onda gedib sirkdə çıxış edərdim.

***

- Kimə daha çox qulaq asırsan: atana, yoxsa anana?

- Anama.

- Niyə?

- Çünki anam çox danışır.

***

Ər arvadına:

- Pencəyimi təmizləmisən?

- Hə, əzizim.

- Şalvarımı da?

- Əlbəttə.

- Ayaqqabılarımı necə?

- Orda da cibin var?

## Hər məhsulu soyuducuda saxlamaq olmaz

**Adətən bir çox ərzaq məhsullarını soyuducuda saxlayırıq. Lakin hər məhsulu soyuducuda saxlamaq olmaz.**



Tərəvəzlərin əksəriyyəti - bolqar bibəri, xiyar, pomidor, kələm, gül kələmi, kök, sukini, sarımsaq, badımcan, kartof və s. soyuq xoşlamır və soyuducuda



saxlandıqda tez bir zamanda faydalı xüsusiyyətlərini itirir. Ümumilikdə mütəxəssislər tərəvəzləri ev temperaturu şəraitində, quru və qaranlıq yerdə saxlamağı tövsiyə edirlər.

Alma, armud soyuducuda daha tez xarab olur.

Ədviyyatları da soyuducuda saxlamaq olmaz. Ədviyyatları quru və qaranlıq yerdə şüşə qablarda saxlamaq lazımdır.

Göyərtilər də soyuq sevməyir.

Tropik meyvələr (banan, ananas, kivi, manqo, papaya və s.) və həmçinin limon, portağal, narıngi soyuqda nəinki təzə qalmır, əksinə daha tez xarab olur.

Bal ev temperaturunda istənilən qədər saxlanıla bilər. Soyuducuda isə bal öz faydalı xüsusiyyətlərini itirir.

Soyuducuya qoyulan şokoladın üzərində ağ ərp əmələ gəlir. Belə şokoladı yemək olar, lakin onun dadı və xarici görünüşü korlanır.

Soyuq və nəm şəraitdə çörəkdə orqanizm üçün çox ziyanlı olan kif göbələkləri inkişaf etməyə başlayır.

Zeytun yağı soyuducuda saxlandıqda öz faydalı xüsusiyyətlərini itirir.

Ketçup və digər acı sousları soyuducuda saxlamaq olmaz.

Əgər biz məhsullardan maksimum dərəcədə faydalanmaq istəyiriksə, onların düzgün saxlanmasına diqqət yetirməliyik.

**Hafta.az**

## İsti su için ki...

**İsti su içəndə bədəninizdə baş verən dəyişiklikləri hiss edirsiniz?**



İsti su qana birbaşa sorulan bir neçə maddədən biridir. Bu zaman bədən suyu digər komponentlərdən ayırmaq məcburiyyətində qalmır.

Çinlilər 40 yaşından sonra otaq istiliyindən soyuq bir şeyin xeyirli olmadığı qənaətindədirlər. Soyuq su daxili orqanları daha çox büzür, problemləri daha da pisləşdirir. İsti su isə bədəni təbii yolla sərinlədən sistemi işlədir. Qan dövranını yaxşılaşdırır, daxili orqanları və qabırğa ətrafındakı əzələləri boşaldır, daha dərin nəfəs almağınızı təmin edir. Mədə turşusunun təsirlərini yaxşılaşdıran, həzmə kömək edən isti su yeməkdən yarım saat əvvəl içiləndə iştahanı azaldır və arıqlamağı sürətləndirir.

## Qorxu da pisdir, nifrət də...

**Mənfi hislər, idarə edə bilmədiyimiz duyğular sadəcə zehnimizi yormur, eyni zamanda daxili orqanlara da ziyan vurur.**

Türkiyəli professor Birsel Kavaklı mənfi hislərin orqanlara zərərindən danışıb. Həkimin sözlərinə görə, əsəb stress hormonlarının artmasına səbəb



olur. Bu da öz növbəsində qaraciyərə təsir edir. Birsel Kavaklının fikrincə, kədər hissi ən çox ağciyərə ziyan vurur: "Böyük bir itki ilə üzləşənlər sinədə ağrı hiss edirlər. Ona görə də, depressiyada olanlara və özünü çox kədərli, dərdli hiss edənlərə açıq havada gəzməyi məsləhət görürlər. Ağciyərə zərər dəyməməsi üçün açıq havaya çıxın və bir neçə dəfə dərindən nəfəs alın. Bu həm daxili orqanlara, həm də psixologiyanıza yaxşı təsir edəcək".



Daxili orqanlara pis təsir edən duyğulardan biri də qorxudur. Qorxmaq böyrəklərin büzüşməsinə səbəb olaraq onun fəaliyyətini zəifləDir.

Zehni yorğunluğun dalağı sıradan çıxartması araşdırmalarla təsdiq edilən faktdır. Həddən artıq düşüncəli olmaq, çox fikirləşmək də dalaq üçün təhlükəlidir.

Həkim mənfi duyğuların ürəyə də təsir etdiyini vurğulayıb. O, qeyd edib ki, ürəyə ən çox ziyan vuran hiss nifrətdir. Nifrət hissi ürəyin ritmini pozur. Ürək daha sürətlə döyünür. Bu isə həmin orqanın yorulması ilə nəticələnir. Birsel Kavaklı mənfi hislərin təsirindən qorunmağın tək yolunun müsbət düşüncələr və pozitiv enerji olduğunu bildirib.

**Tahir DADAŞOV**

## Məşhur milyonerlərin yaşadıqları şəhərlər

**Beynəlxalq "Wealthinsght" analitik portalı dünyanın məşhur milyonerlərinin daha çox yaşadıqları 20 şəhərin siyahısını tərtib edib.**



Bank hesablarında milyonlar olan şəxslərin yaşadıqları şəhərlərin siyahısına Monako başçılıq edir. Milyonerlərin 29,21 faizi məhz bu şəhərdə yaşayır.

İkinci yerdə 27,34 faizlə İsveçrənin Sürix şəhəri yer alıb.

Bu ölkənin daha bir şəhəri - Cenevrə 17,92 faizlə üçüncü yerdədir.



Sonrakı yerlərdə Nyu-York (4,63 faiz), Frankfurt (3,88), London (3,39), Oslo (2,29), Sinqapur (2,80), Amsterdam (2,67), Florensiya (2,59), Honq Konq (2,58), Roma (2,54), Dublin (2,40), Doha (2,34), Toronto (2,29), Venesiya (2,25), Brüssel (2,11), Hyuston (2,9), San-Fransisko (2,7) və Paris (2,4) qərarlaşır.

Siyahıdan göründüyü kimi, dünyanın məşhur milyonerlərinin əksəriyyəti Avropa şəhərlərində məskunlaşıb. Buna səbəb, həmin şəhərlərdə ətraf mühitin yaşamaq üçün daha əlverişli olması göstərilir.

**Tahir DADAŞOV**


BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

ÜNVANIMIZ:
AZ 1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ
Baş redaktor
(050) 670-33-76,
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi
"Azərbaycan
Xəzər Dəniz
Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyətidir

Qəzet "Dəniz"
qəzetinin kompyuter
mərkəzində yığılmış,
səhifələnmiş və
"OL" MMC-də
çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 117